DÖVLƏT
VERGİ
XİDMƏTİ

# Sadələşdirilmiş verginin ödəyicisi olan məktəbəqədər təhsil müəssisələri və uşaq evlərinin nəzərinə!

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən**

**01.01.2020-ci il tarixdən etibarən** sadələşdirilmiş verginin ödəyicisi olan məktəbəqədər təhsil müəssisələri və uşaq evlərinin bu fəaliyyətdən əldə etdikləri gəlirlərinin sadələşdirilmiş vergidən azad olunması barədə **güzəşt ləğv edilmişdir**.

Mənfəət vergisinin ödəyicisi olan və məktəbəqədər təhsil müəssisəsi və ya uşaq evi kimi fəaliyyət göstərən hüquqi şəxslərin qeyd edilən fəaliyyətdən əldə olunan gəlirləri isə 2014-cü il yanvarın 1-dən 10 il müddətinə mənfəət vergisindən azad edilmişdir.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

Hüquqi şəxs kimi bu fəaliyyətdən əldə etdiyiniz gəlirlərinizin mənfəət vergisindən azad edilməsi üçün mükəlləfiyyətinizin sadələşdirilmiş vergidən mənfəət vergisinə dəyişdirilməsi barədə qeydiyyatda olduğunuz vergi orqanına müraciət edə bilərsiniz.

Qanunvericiliyin tələblərinə əməl etməyəcəyiniz halda, baş verə biləcək maliyyə itkiləriniz və vergi məbləğlərinin hesablanıb ödənilməsi ilə bağlı məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.